# Kuleşovun layiqli davamçısı



> **H.Seyidbəyli ilə İ.Qasımovun Mehdi Huseynzadəyə həsr olunmuş "Uzaq sahillərdə" povestindəki: "Mehdi Qasım İsmayılov küçəsindəki ikimərtəbəli balaca evlərini xatırladı. Evlərinin qabağında bir söyüd ağacı bitmişdi. Küçənin o biri tərəfində isə onun oxuduğu on doqquz nömrəli məktəb yerləşirdi.**

Mehdi öz müəllimi Süleyman Sani Axundova xüsusi məhəbbət bəsləyirdi" cümlələri sənədli informasiyanın təqdimatını portretin və mühitin gerçəkliyinə yönəltsə də, ssenaridə əsas fikir sevən bir gəncin gələcək arzularının reallaşmasına mane olan faşizmin aradan qaldırılmasına yönəlir. Həmin povest üzrə müəlliflərin birgə ssenarinin, 12 yanvar 1955-ci ildə Bakı kinostudiyasının Bədii şurasının müzakirəsində Hüseyn Seyidzadənin: "Adətən bizim yazıçılar hər hansı bir əsər yazanda müsbət personajlar, mənfilərdən yaxşı alınır" qənaətinə şərik olmayaraq: Düşünürəm ki, Karranti ilə müqayisədə qənaətbəxş olmayan Mehdi daha quru alınmışdır" deyən Mikayıl Mikayılovun qəhrəmanın rəssamlığına da çox əhəmiyyət verildiyini, azərbaycanlılığının yetərincə qabardılmadığını, materialın çəkiliş üçün ağır olduğunu söyləməsi, Əjdər İbrahimovun: "Karrantinin caz musiqisi altında ölümünü, Vasyanın cəsədinin əldən-ələ ötürülməsini" tərifləsə də, "dramaturgiyanın tədricən söndüyünü" bildirərək ixtisarlarla birgə "zəif göstərilən Şultsu gücləndirməyi" təklif etməsi müzakirələrin məhsuldarlığından xəbər verir.

Bu ssenari əsasında kinorejissor Tofiq Tağızadənin quruluş verdiyi "Uzaq sahillərdə" (1957) filmində dalğalanan faşist bayrağı altında inamla addımlayan əsgərlərin fonunda diktor mətnindəki: "Adriatik dənizinin sahilləri. Şiddətli küləklər, amansız fırtınalar ölkəsi. İndi bu uzaq sahillərdə başqa fırtınalar çuğlayır. Bu amansız fırtına ailələr dağıtmış, evləri xarabazarlığa cevirmişdir. İndi Triest şəhərinin kücələrində insan izi qalmamış, coxları oz evini tərk edib dağlara cəkilmişdir. Budur onlar. Bu cəsur adamlar öz torpaqlarının faşist işğalcılarının ayaqları altında tapdalanmasını istəmirlər. Bunlar çexlər və bolqarlar, italyan və slovaklar, ruslar və vengerler, fransiz və ispanlardır. Din ayrı, adət ayrı olsa da, onları birləşdirən bir arzu, bir məqsəddir. Bunların arasında olan bu gənc uzaq Xəzər sahilindən gələn azərbaycanlı Mehdi Huseynzadədir" cümlələri iyirminci əsrin ən boyük təhlükəsinin fəsadlarına qarşı çıxanları səciyyələndirir.

Ağaca söykənib rəsm çəkən Mehdi Hüseynzadənin təsvirindən sonra tərcümeyi-halı oxunaraq başına 300.000 mark qiymət qoyulması barədə divara vurulmuş elanı nəzərdən keçirən beretli adamın satdığı Mixayloya yaxınlaşan alman zabitinin tərəddüddən sonra "Alman zabitini ələ salmaq fikrindəsən? İtil burdan!



Əbləh!" deyərək satqına sillə vurması hadisəliliyi artırır. Cicək satan italyan qızı Anjelikaya axşamkı əməliyyat barədə xəbər verən Mixaylodan sonra mağazaya girən Rossellininin (A.İsgəndərov) qızla unsiyyəti gələcək hadisənin təməlini yaradır. Vesilinin müşayiəti ilə alman hərbcilərinin əyləndiyi restorana gələn Mixaylonun ayaqyoluna partlayıcı qoyarkən rastlaşdığı bayaqkı zabitin yenidən onları ifşa olunmaqdan xilas etməsi fabulanı qızışdırır. Yarğan uzərindəki Anjelikanın, Mixaylo ilə Vesilini qarşılaması məqamındakı partlayışdan sonra uzaqdan şölələnən restoran binası vizuallığı artırır. Və yaxınlaşan alman zabitinin kommunist oldugu barədə sənədi təqdim edərək həbs duşərgələrindəki əzablarından söz açması və partizanların arasında ortayaşlı, çapıqlı, beretlı satqın haqqında məlumat verməsi gərginliyi artırır. Partizanların arasına saldığı Karrantinin bacarığı barədə gestapo rəisi mayor Şultsdan təriflər eşidən kazino sahibi, faşistləri ərzaqla təmin edən iş adamı Mazellinin restoranın partlayışından sonra Mixaylonun başına qoyulan 300.000 mark məbləği artırmaq tələbi kommersiya marağını önə cəkir. Komandir Ferreronun yad adamı partizanların qərargahına gətirdiyinə görə Mixaylonu tənbeh etməsi, həmin kommunist zabit beretli satqını nişan verdikdə Karranti tərəfindən güllələnməsi fabulalığı artırır.

Zümzümə edə-edə rəsm çəkərək "Mənim düşündüyüm tablo üçün parlaq günəş, aydın səma lazımdır. Təsəvvür edin ki, müharibə qurtarmışdır" deyən Mehdinin mövzu-xatirəsində Anjelika ilə üstüaçıq maşında Bakının kücələrini gəzməsi, qumlu dəniz sahilində sevgilisinin səbətdə gətirdiyi meyvələrin dadına baxması məqamında, gələn komandir Ferreronun sənədləri guya saxta olan alman kommunistinin qacarkən Karrantin tərəfindən gulləlenməsi barədə informasiyası ideyanın açılışına yönələn süjeti zənginləşdirir. Alman zabitinin onu xilas etməsini, yüzlərlə hitlerçinin qırılmasına səbəb olan partlayışa mane olmamasını xatırlayan Mehdinin Karrantinin uydurmasına inanmaması qarşıdurmanı psixoloji müstəviyə gətirir. Mixaylo ilə bir gündə tapşırığa gedənlər arasında ortayaşlı, alnıçapıq, beretli Paolonun da olduğunun yada düşməsi ilə istirahət edən partizanlar arasında xaini axtaran komandir Ferreronun hər kəsə ata nəvazişi ilə fərdi yanaşaraq ünsiyyətə girməsindən sonra coxmənalı tərzdə bığlarını sığallaması, uğursuz əməliyyatlar zamanı itkinin coxluğundan əzab çəkməsi psixologizmi davam etdirməklə aktyor Ələsgər Ələkbərovun peşəkar üslubundan xəbər verir. Həmin gün Paolonu kəşfiyyata göndərdiyi aşkarlandıqda həmən daxil olub partizanlar arasında xain oldugunu riyakarlıqla bildirən Karrantinin Trieste gizli mərkəzlə əlaqəyə girməyə göndərilməsi şərin cəzalandırılmasına xidmət edir. Paolonun aradan cıxdığını bildirən Mehdinin kürəyinə bıçaq saplayan Karrantilə əlbəyaxa olmaları xeyir-şər qarşıdurmasını gücləndirir. Partizanların ayağa qalxması, Mehdiyə yardım edilməsi, Karrantinin otağından başlanan yeraltı yolla qaçıb aradan çıxması, hər kəsin yaralıya qan vermək istəməsi, parol və məkanların dəyişdirilməsi, Anjelikanın saçlarını sığallayıb öpdüyü sevgilisinin sağ qalmasına sevinməsi, Vesilinin intiqama söz verməsi attraksionların montajını yaradır.

Mixaylonu öldürdüyünü israr edən Karranti ilə mayor Şultsun partizanları təqib etmək, onların ərzaq təminatı yaradan əhali ilə əlaqəsini kəsmək barədə söhbətlərini gizli mikrafonla dinləyən Mazellinin qəflətən gəlib çıxan arvadı Pifitanı qorxutması əsas hadisəni davam etdirir. Oğlu Vesilini əlindən aldıqlarına görə partizanlara ərzaq qıymayan qoca Tintinin gözü qarşısında əhalinin güllləbəran edilməsi, muşayiətçisini itirən köməksiz kora belə aman verilməməsi qarşıdurmanın miqyasını göstərir. Ferreronun aclığın fəlakət həddinə çatdığını rabitə cihazı vasitəsilə mərkəzə bildirməsi fonunda ərzaq kasadlığına baxmayaraq əsgərlərin zarafat etmələri, informasiyanın gercəkliyini artırır. Bahalı geyim-kecimlə hansısa zəngin Pyetronun xanımı kimi qarşılanan Anjelika ilə qardaşının, alman ordusunun mayoru qiyafəsindəki Mixaylonun silah gücünə ərzaq təminatı eldə etdikləri məqamda "gül satan qız"ın xatırlanması, hitlerçilərin dağ yollarındakı döyüşlə yüklü avtomaşın karvanını durdurmağa cəhd göstərmələri attraksionların montajı prinsipi ilə həyata keçirilir.

Oğlunun xilaskarı Mixayloya: "İsa köməyin olsun, bala!" deyən atasına dostunun xristian olmadığını bildirən Vesilinin qocanın: "Bəs hansı dinə inanır?" sualına: "Qardaşlıq dininə. O ürəkdən inanır ki, faşistləri məhv etmək cox çəkməyəcək. Biz bunun ucun vuruşuruq, ata!" kəlmələri şərlə mübarizə aparanların irqi, dini, milli ayrı-seçkilikdən uzaqlığını təsdiqləməklə bəşəri



ideyanı vurğulayır. Mayor Şultsun: "Mənə Mixaylo lazımdır!" deyə üstünə hiddətləndiyi Karrantinin vardövlət naminə əyləndiyi Pifitanın əri Mazellini aradan götürmək niyyəti isə burjua zümrəsinin iç üzünü açmaqla, sosrealizmə sədaqəti təsdiqləyir. Mazellinin Yalançı Mixaylonu güllələyən Karrantinin, pul qazanmaq üçün bu kələyi düşünən Mazellini də həmən qətlə yetirməsi, informasiyanın qəzetlərdə cap olunmasilə Şultsdan 300.000 markı alması, sevgilisinin rəsmini çəkən Mehdinin Anjelika və Vesilinlə zabitlərin yığışdığı kinoteatrı partlatmaq planını hazırlamaq üçün kəşfiyyata göndərilmələri hadisələri qızışdırır.

Küçədəki kanalizasiya təmirçisini görməklə əməliyyatın həyata keçirilməsində yeraltı quyuların keçidlərindən istifadə etməyi düşünən Mixaylonun təklifi sadəlövh görünsə də, onun başının əbəs yerə 500.000 mark dəyərləndirilmədiyini dilə gətirən gizli təşkilat rəhbəri qəhrəmanın statusunu təsdiqləyir. Gestaponun xüsusi vəsiqəsini alan kəşfiyyatçılar üçün, seansın vaxtını öyrənmək naminə Anjelikanın "cavan oğlan" deyə yaxınlaşdığı qoca zabitdən vacib informasiyanı asanlıqla alması süjetin səbəb-nəticə əlaqəsini nizamlayır. Mehdi ilə Vesilin Anjelikanı Karrantini müşayiət edən gestapoçulardan azad etsələr də, yenidən ələ keçən qızın saat doqquzda alman zabiti ilə görüşü olduğunu qışqıra-qışqıra yeraltı yolların dəliklərindən onu eşidən Mehdiyə catdırması, epizodu şərtiliyə yuvarlatsa da, işğalçıların qələbələri barədə kinoxronikanın nümayiş etdirildiyi kinoteatr binasının partladılması, faşizmin məhvi yolunda tutarlı addıma cevrilir. Anjelikaya işgəncələr verildiyini, Mehdi ilə Vesilinin rabitəçilə görüşə bilmədiyini öyrənən komandir Ferreronun çoxsaylı partlayışlarla diqqəti bu üclükdən yayındırması mübarizənin miqyasını göstərir.

Özünü lallığa vurmuş kəşfiyyatçının başının üzərindən atılan gülləyə gözünü qırpmamaqla alman əsgərlərində gülüş yaratmaqla həyatını xilas etməsi



gərgin hadisələr arasında pauza yaratmaqla qavrayışı gücləndirir. İşgəncələrə dözməyib Mixaylonu satmağa razılaşan Tintinin çəpərin dalında gizlənən oğlu Vesilinin: "Ata, sən Mixaylonu xilas etməlisən. Sən bunu etsən, mən söz verirəm, həmişəlik evimizə qayıdacağam" sözlərini eşitməklə fikrindən dönməsi hadisələrin dəyişməsində mətnin rolunu gözönü nümayiş etdirir. "Mixaylo"ların üçünü asıb, ikisini güllələdiyini deyən mayor Şultsun hüzuruna fransız rəssamı Ogyust Kraus kimi gətirilən Mehdinin aktyorluğu Nodar Şaşıqoğlunun peşəkar üslubu hesabına yadda qalır. Peyda olan Karrantin vaxtilə aldıgı pullara görə özünü tanımazlığa vurması teatr şərtiliyi üzərində qurulsa da, döyüşə-döyüşə dağlara çəkilərkən yaralanan Vesilinin Anjelikanı sevdiyini ölüm anında Mehdiyə bildirməsi və qayalara çırpılan dalğaların fonunda dostunun cəsədini qucağında daşıyan qəhrəmanın sevgilisinin son məktubundakı: "Əzizim Mehdi! Cox arzulayardım ki, məni bir döyüşçü kimi tanımayasınız. Mən sizi sevirdim." kəlmələrini oxuması ilə canlanan mövzu-xatirədə partizanların faşizmlə mübarizəsini yenidən təcəssüm etdirən partlayışların dənizin coşması ilə montajı kontekstində təqdimatı epizodu romantizmin hissiyyat gerçəkliyində dolgunlaşdırır. Fırıldaqlarının açıldığını hiss edərək var-dövlətini götürüb aradan cıxmağa cəhd edən Karrantinin, Tintinin evini mühasirəyə alaraq günahsız adamları məhv etmək istəyən mayor Şultsun Mehdi tərəfindən öldürülməsi xeyirin şər üzərindəki qələbəsini səciyyələndirir. Ölum ayagındakı mövzu-fantaziyasında Anjelika ilə doğma yurda qayıtmasnı gözləri önündə canlandıran Mehdi bir gəncin puç olmuş arzularını bəyan etməklə müharibənin acı nəticələrinin ümumiləşdirilmiş obrazını yaradır.

Mixaylonun ekran obrazının ölkə miqyasında özünütəsdiqi barədə kinoşünas S.Lavrentyevin yazdığı: "Sovet qadınları onilliklər boyu "Uzaq sahillərdə" filmindəki nasist forması geymiş "bizim oğlan"a pərəstiş etdilər" cümləsi müvəffəqiyyətin diktor mətnində deyildiyi kimi, Mehdinin bir neçə dili, xüsusən alman dilini təmiz bilməsi də antropoloji cəhətdən belə gestapoçuların diqqətindən yayınmasını təsdiqləyir.

● **Aydın ƏRŞADOĞLU,**
***filologiya elmləri doktoru***

**Ə d ə b i y y a t**

1. Qasımov İ.H. Seyidbəyli H.M. Uzaq sahillərdə. B.1974.s.51
2. Fond №330. op 5, saxlama vahidi 307.
3. Лаврентьев С. А я люблю военных. ж. Искусство кино № 5, 1997. c.85.